

*Bayram Həmidoğlu*

# Nekroloq İbad

*(Hekayə)*

*Əvvəllər qəribə xasiyyətim var idi. Qəzetlərdən ancaq nekroloqları oxuyardım. Çünki qəzetlər dönmüşdü nekroloq bülleteninə. Elə ki, məktəbi bitirib istehsalata atıldım və əlim qələm tutdu, qəzetlərin bir hərfi də gözümdən yayınmadı. Hardasa ya yazımın dərc olunmasını, ya da adımın çəkilməsini izləyirdim. Xülasə, qəzetlərin səhifələrindən nekroloqlar yavaş-yavaş çəkilməyincə yazılarım işıq üzü görmədi. Mən hələ ölü qoxusu verən bəzi məqalələri demirəm ki, mətbuatda diri-diri ayaq açıb yeriyirdi. Nəhayət, hardansa üzümə gün doğdu, ilk yazım çap olunmuş qəzeti əlimə alıb şair dostum İbadın üstünə qaçdım. Qəzeti sevincək ona göstərib məni təbrik edəcəyini gözlədim. O isə mısmırığını sallayıb qəzeti özündən kənar elədi:*

*- Elə bildim kiminsə nekroloqu çap olunub,*

*- deyə məni altdan yuxarı süzdü. Mənim qəmgin olduğumu görüb əlavə etdi, - hər halda, xoşbəxt adamsan ki, şeirin dördüncü səhifədə nekroloq yerində verilib.*

*Nekroloq oxumaq marağını mənə İbad aşılamışdı. Mən getdikcə bu vərdişdən əl çəkməyə çalışır, dostumun isə sözü-söhbəti yalnız nekroloqdan idi:*

*- Türkiyədə Zeynəb Xanlarova öz nekroloqunu oxuyub.*

*- Filan şairin nekroloqunda, filankəsin yaxşı vida sözü yazılıb.*

*- Xuruşşovun qəzetlərdə nekroloqu çıxmadı.*

*Bir neçə belə sadalamalardan sonra İbad məni xəlvətə çağırıb qulağıma pıçıldadı:*

*- İndi ki, sən də şeirə maraq salmısan, gəl yaşlı nəslin nümayəndəsi şair Qocamanlı ilə tanış olaq. Lazımlı adamdır. İşdi, birdən vəfat etsə, haqqında xatirə yazıb qəzetdə dərc etdirərik, adlarımız yanaşı çəkilər. Zəmanəyə etibar yoxdur, əksinə də ola bilər. O bizim haqqımızda ürək sözünü deyər.*

*Mən İbadın az-çox istedadına bələd idim. Ancaq onun bu qədər uzaqgörən olduğunu bilmirdim. Elə bil kişinin ürəyinə dammışdı. Şair Qocamanlı ilə tanış olub dostluq işlətməsi kişinin karına gəldi. İllərlə mətbuat üzünə həsrət qalan şeirləri Qocamanlının təqdimatı ilə üzə çıxdı. Haqqındakı təriflər dilə-ağıza sığışmadı. O təriflər ki, əlim gəlmir yazmağa, necə deyim, əgər özü oxusaydı bu nekroloqu (hələ şair Qocamanlının onun şəninə yazıb nekroloqun altında çap etdirdiyi şeiri demirəm) tabutdan baş qaldırıb maşın qəzasında qırılmış, xırd-xəşil olmuş qıçları ilə durardı ayağa. Əfsus, bu ona qismət olmadı. Ancaq ən böyük arzusu (Qocamanlının təkidi ilə yerli qəzetdə çap olunan nekroloq) həyata keçdi...*

*Ey bivəfa dünya, hərdən rəhmətlik İbaddan söz düşəndə (indi tay-tuşları adını nekroloq İbad qoyublar, çünki qəzetlərdə nekroloq elə İbadla getdi) istər-istəməz onun deyimlərini xatırlayıram:*

*- Nekroloq İbad demişkən, şairlik yetim peşəsidir, gərək əltutanın ola.*

*- Nekroloq İbadın sözü olmasın, filan şairin şeirləri ölü misralardı. Amma arxasında diri adam durur.*

*Doğrudur, İbada nekroloq İbad deyirik. Ancaq o istərdi ki, şair İbad çağırılsın...*

---

## *DİM abituriyentlərə müraciət edib*

**Dövlət İmtahan Mərkəzi (DİM) abituriyentlərə müraciət edib.**

**Müraciətdə bildirilir ki, DİM tərəfindən yaxın vaxtlarda ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə qəbulu və imtahanlara start veriləcək.**

**DİM bununla əlaqədar abituriyentlərə sənədlərini qaydaya salmağı tövsiyə edib.**

**Bu günədək keçirilən buraxılış imtahanlarında iştirakçılar arasında xeyli müddət əvvəl şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitmiş şagirdlər olub.**

**2021-ci il yanvar ayının 1-dək şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitmiş abituriyentlər ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu və imtahanlarda iştirak etmək üçün müvafiq qurumlara müraciət edərək öz sənədlərini yeniləməlidirlər.**